# Azərbaycan-Türkiyə: ortaq dəyərlərin və strateji hədəflərin zirvəsində

*Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin həmişə kəlamını yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



**Qloballaşma sənaye inqilabları və transmilli iqtisadi fəaliyyət dünyanın hər yerində qədimdən gələn milli, dini ortaqlıqları sıxışdırıb yeni platformalar yaratdıqca, tarixin ümumi dəyərləri üzərində etnik-mədəni və regional yaxınlaşmalar da bir o qədər güclənir. Qitələr, materiklər, okeanlar, iri su hövzələri çevrəsində yaranan regional birliklər, ərəb, slavyan, anqlo-saks mənşəli xalqların, İslam, xristianlıq, buddizm və iudaizm kimi dünya dinlərinin yayıldığı ölkələrin etnik-dini ortaqlıq əlamətləri, dostluq–həmrəylik duyğuları müstəvisində məxsusi təşkilatları ümumdünya nizamında önəmli tənzimləyici mexanizmlərə çevrilmişdir. Bu baxımdan türkdilli dövlətlərin və islam inanclı ölkələrin etnik və dini ortaqlıq üzərində yaradılan beynəlxalq qurumları da tarixi dəyərlərin yaşadılmasında və ortaq hədəflərin gerçəkləşdirilməsində önəmli rol oynayır.**

Bəlli olduğu kimi, Türk Şurası türk coğrafiyasına Türkiyə–Azərbaycan və İran vasitəsilə körpü olan qədim Naxçıvanda elan edilmişdir. Bu qurumun yaradılmasının 10 illiyinə həsr olunmuş VII yubiley zirvə görüşü də bugünlərdə məhz Azərbaycanda keçirildi. Bu görüş həm də şuranın genişlənməsi ilə əlamətdar oldu. Zirvədən bir gün əvvəl Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) ölkələrinin xarici işlər nazirlərinin iclası keçirildi. Özbəkistan ilk dəfə olaraq Türk Şurasının tamhüquqlu üzvü kimi bu iclasda və zirvə görüşündə iştirak etdi.

Türk Şurasının fəaliyyətində Azərbaycanla Türkiyənin çoxtərəfli əməkdaşlığı, gündən-günə dərinləşən və genişlənən hərtərəfli münasibətləri aparıcı yer tutur və xeyli dərəcədə əlaqələndirici rol oynayır. Azərbaycanla Türkiyənin tarixi sınaqlardan keçib gəlmiş dostluq və qardaşlıq münasibətləri Türk Şurası daxilində əsl əməkdaşlıq örnəyi təşkil edir.

Türkiyə Prezidenti zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfəri ərəfəsində bildirib ki, Türkiyə türkdilli ölkələrlə münasibətləri ilə fəxr edir. Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, türkdilli ölkələr arasında münasibətlər bundan sonra daha da inkişaf edəcək. O əlavə edib ki, Azərbaycana səfəri çərçivəsinfə Türk Şurasına üzv dövlətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirəcək. İlk belə görüş, təbii olaraq, Azərbaycan Prezidenti İlham Əliyevlə keçirildi.

Zirvə toplantısında əvvəlki gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı böyük səmimiyyətlə qəbul etdi. Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Bu baxımdan sərmayə qoyuluşu, ölkələrimizin həyata keçirdiyi qlobal enerji layihələrinin rolu, həmçinin ötən il TANAP boru kəmərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin fəaliyyəti vurğulandı.

Görüşdə müdafiə sənayesi, təhsil, turizm, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu. Söhbət zamanı ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə görüşünün ölkələrarası əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.

Göründüyü kimi, Azərbaycanla Türkiyə arasında tarixi ədalətsizlik səbəbindən kəsilmiş çoxəsrlik əlaqələr ölkəmiz dövlət müstəqilliyi qazanandan dərhal sonra tam bərpa edilib və əksər sahələrdə uğurla davam etdirilib. Türkiyə 9 noyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. İki ölkə arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulub. Azərbaycanın Türkiyədə səfirliyi 1992-ci ilin avqust ayında açılıb. 1993-cü ilin yanvar ayında İstanbul şəhərində, 12 aprel 2004-cü il tarixində isə Qars şəhərində Azərbaycanın Baş konsulluqları təsis edilib. Türkiyənin Bakıda səfirliyi və Naxçıvan və Gəncə şəhərlərində baş konsulluqları fəaliyyət göstərir.

Ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fundamental baxışları üzərində ucalan Azərbaycan—Türkiyə dövlətlərarası münasibətlərinin dünyada bənzəri yoxdur. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib, daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. bütün sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan–Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Azərbaycan--Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

İkitərəfli iqtisadi münasibətlərin hərtərəfli inkişafı baxımından, 1994-cü ildən sonra həyata keçirilən tədbirlər və hüquq-müqavilə bazasının təkmilləşdirilməsi istiqamətində atılmış addımlar xüsusi mərhələnin əsasını qoymuşdur. Son 28 ildə Azərbaycan və Türkiyə arasında siyasi əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş, 15 sentyabr 2010-cu ildə İstanbulda imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılmasına dair Birgə Bəyannamə ilə təsbit olunmuş YSSƏŞ-in mütəmadi keçirilən iclasları iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini verib. İclasların yekununda bütün sahələrdə əlaqələr müntəzəm nəzərdən keçirilib və bir çox sahələrə dair əməkdaşlığa dair mühüm sənədlər imzalanıb .

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr–Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və 30 oktyabr 2017-ci ildə Bakı şəhərində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə həyata vəsiqə almış "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da çox önəmlidir. Birgə əməkdaşlıq və təşəbbüs ilə inşası davam etdirilən, artıq XXI əsrin layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin əsas hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması da Türkiyə və Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığının növbəti uğurudur. Bu layihələr iki ölkənin regional qüvvəsini artıraraq qlobal mövqelərini möhkəmləndirir.

Son illər isə Azərbaycandan Türkiyəyə investisiya qoyuluşlarında mühüm artım müşahidə olunmaqdadır. Belə ki, hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 mindən çox şirkət fəaliyyət göstərməkdədir. Yalnız Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki investisiyalarının ümumi həcmi 15 milyard dollara çatıb. Bununla da, Türkiyədə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir.

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: "Türkiyə–Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk". Türk Şurasının Bakı Zirvə görüşü bu həqiqətin bir daha tarixi təsdiqi oldu.

*Tahir AYDINOĞLU,*
*"Xalq qəzeti"*